A.Ə.QULİYEVA
dosent, müəllim
e-mail: aynurmurad@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.068

İNGİLİS DİLİNDƏ OLAN ZOONİMLƏRİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Zoonimlər ingilis dilinin lüğətinin mühüm hissəsini təşkil edir. Heyvanların müxtəlif xüsusi adlarla adlandırılması qədim zamanlardan bu günə qədər mövcud olmuşdur ki, bu da onların insan həyatındakı xüsusi rolu ilə bağlıdır. Onlar insanın təsərrüfat fəaliyyətində əvəzsiz köməkçilər, sirk və zoopark işçiləri üçün yaxın və həqiqi dostlardır. Üstəlik, onları tərcümə etmək mümkün olmadığından, ekvivalent olmayan vahidlərə aid edilir. Məhz buna görə də o, sözlərin semantik təhlili və müqayisəsi yolu ilə üzə çıxan milli-mədəni komponenti ehtiva edir. İnsan dünya ilə deyil, öz ideyaları, idrak nümunələri və modelləri ilə məşğul olur. Belə olduğu halda da dil və mədəniyyətin ünsiyyəti və qarşılıqlı əlaqəsi müasir dilçiliyin əsas problemlərindən birinə çevrilir.*

Açar sözlər: *zoonim, frazeoloji vahidlər, metafor, leksik xususiyyət, ünsiyyət*

Hər bir dilin lüğət tərkibinin zənginləşməsində zoonimlər nəzərə çarpacaq yer tutur. Bildiyimiz kimi, zoonimlər heyvanlara verilən xüsusi adlardır. Daha dəqiq desək, heyvan adları ilə bağlı ləqəblərdir ki, bunlardan istifadə olunur. Zoonimlər onomastikanın bir sahəsidir. Bəs onomastika nədir? Onomastika dilçilikdə ən gənc hesab olunan elm sahəsidir ki, dildə uzun müddət istifadə və ya başqa dillərdən alınma nəticəsində hər hansı xüsusi adın tarixini öyrənir. "Dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur" [1, s. 3]. Zoonimiya isə onomastikanın heyvanların adlarını və ləqəblərini öyrənən ən gənc elm sahələrindən biridir.

Onomastik vahidlərinin bir qrupu olduğuna görə prof. A.M.Qurbanov zoonimləri ümumi və xüsusi olmaqla iki yerə ayırır. Onun fikrinə görə, heyvan, quş növlərin, sürünənlər, həşəratlar ümumi zoonimlərə daxildir. Adları, "ləqəb"ləri isə xüsusi zoonimlərə aid edir. Buraya da, o, əsasən, zooantroponimləri − heyvan adlarından əmələ gəlmiş şəxs adlarını (Maral, Ceyran, və s.), zootoponimləri − heyvan adlarından əmələ gəlmiş toponimləri (Tülküdərəsi, Ayıtalası, və s.), zoohidronimləri – heyvan adlarından əmələ gələn hidronimləri (Ceyranbatan, Maralgöl və s.) daxil edir [2, s. 402-403].

Zoonimlər zəngin metafor, frazeoloji vahidlər mənbəyidir və deyə bilərik ki, onlar nümunəvi milli mədəni baxışları, fikirləri ifadə edirlər. Onlar heyvanların zahiri görkəminə və davranışına insanın davamlı müşahidəsini əks etdirir. Onlara insanların münasibətini göstərərək bəzi keyfiyyətlərini önə çəkir və simvollara çevrilirlər. Zoonimlər hər bir dilin mədəniyyət və informasiya fonduna çevrilməklə hər bir xalqın təfəkkürünü yaradırlar.

Zoonimlər həm bədii ədəbiyyatda, həm də ünsiyyət zamanı müxtəlif funksiyaları yerinə yetirə bilərlər və xüsusi semantic gücə malikdirlər. Məsələn, müxtəlif frazeoloji vahid, idiom, atalar sözləri, zərb məsəllərdə metaforik mənalarda işlədilə bilər. İnsanların zoomorfoloji səciyyələndirilməsi zamanı zoonimlər məcazi mənada işlədildiyi üçün məna daralması baş verir.

İstənilən dildə heyvanların adlarına istinad təbii və normal hesab olunur, çünki heyvanlar da insanlar kimi özünəməxsus vərdişlərə, xüsusiyyətlərə malikdir. Onların da hər birinin özünəməxsus həyat tərzi və davranışı mövcuddur. Hal-hazırda bir çox heyvan adları metafor ilə təyin olunur. Metaforik obraz insanın heyvan haqqında təsəvvürü əsasında formalaşır və

heyvan adı ardıcıl olaraq müəyyən keyfiyyət və xüsusiyyətlərə malik olan predmetlə, onun simvolik mənası ilə əlaqələndirilir. İngilis dilində, *the cow is stupid, the hare is wise, the fox is sly, the bear is clumsy, a snake in the grass, as stubborn as a mule* və s.

Hər bir dilin frazeoloji sistemində zoonimlər böyük bir hissəni təşkil edirlər desək yanılmarıq. Frazeoloji vahidlərin formalaşmasının dilçilik baxımından öyrənilməsi xalqın dünyagörüşünün xüsusiyyətləri haqqında məlumat əldə etməyə imkan verir. Dilin leksik sistemində zoonimlər ən maraqlı hadisələrdən biridir. Hələ qədim dövrlərdən heyvanların qavranılmasında rəmz kimi heyvaniliyin və totemizmin formalaşdığı bizə məlumdur. İnsan özünü yaradılışın zirvəsi kimi ucaltmayıb, heyvanların davranışları müəyyən dərəcədə insanlara örnək olub.

Zoonimləri ev heyvanları (keçi, at, dovşan, it, donuz, toyuq, inək, toyuq, qoç) və vəhşi heyvanlar (maral, meymun, pələng), quşlar (göyərçin, bayquş), həşəratlar (hörümçək) və sürünənlər (ilan) olmaqla kateqoriyalara bölürlər. Bu bölgüdə kontekstual bir məna əldə edərək, müəyyən bir xarakter xüsusiyyətini və ya düşüncə tərzini vurğulamaq üçün istifadə olunur. İkili təbiətə malik olan, yəni insanı həm müsbət, həm də mənfi xüsusiyyətlərinə görə səciyyələndirən leksik komponentlər – heyvan adları xüsusi maraq doğurur. İngilislər insanın hər iki xüsusiyyətinin cəhətlərini aşağıdakı kimi heyvan adlarından istifadə edərək fikirlərini ifadə edirlər:

as harmless as a dove – göyərçin kimi zərərsiz;
innocent as a lamb – quzu kimi günahsız;
as watchful as a hawk – şahin kimi ayıq;
behave like a dog – it kimi davranmaq;
as fat as a pig – donuz kimi kökəlmək;
be lower than a snake's belly – çox alçaq, rəzil olmaq;
as greedy as a wolf – qurd kimi tamahkar olmaq və s.

İlk növbədə insanlara yaxın olan ev heyvanlarına (pişik, it, at, inək) xüsusi adlar verilir: Məstan, *Reks, Pulsar, Gümüş, Xallı, Yallı, Maks, Poppy* və s. Lakin cəmiyyət üçün müəyyən əhəmiyyət kəsb edən digər heyvanların (məsələn, zooparklarda və sirklərdə saxlanılan) öz adları ola bilər. Bundan əlavə, zoonimlərin semantikasında çoxfunksiyalı zoonimlər müəyyən olunur ki, bu adlar, ləqəblər müxtəlif heyvan növlərinə uyğun atribut kimi tətbiq olunur. Zoonim hər hansı heyvan növünün tipik ləqəbi statusu aldıqda asanlıqla ikinci dərəcəli təsnifat nominasiyasını alır, yəni ümumi adlar kateqoriyasına qayıda bilir.

Məlum olduğu kimi, sözlərin leksik mənasının həm denotativ, həm də konnotativ məna növləri olur. Zoonimlər də dil elementlərinin tərkib hissəsi kimi həm denotasiya, həm də konnotasiya məzmununa malikdirlər. Denotatlar öz istinad, birbaşa mənalarını ifadə edərkən, insanların hisslərindən, qavrayışlarından və zehni obrazlarından irəli gələn konnotasiyalar isə ifadə olunan obyektə müsbət və ya mənfi fikirlərini ortaya qoyurlar.

Belə bədii ifadəli konnotasiyalar atributlar toplusunu verilmiş insanlara, obyektlərə və ya elementlərə aid edir. Təcrübədə bu cür atributların öyrənilməsi bizi dominant təfəkkürün və dildə və cəmiyyətdə zoonimlərin istifadəsinə üstünlük verən tendensiyanı başa düşməyə aparacaq [3].

Z.F.Jurabayevanın fikrinə görə, zoonimlər mənbə etibarilə bir neçə yerə bölünür:

a) çoxsaylı antroponimlər. İngilislərin nitqində qısaldılmış sözlərə düzəltmə elementlərin artırılaraq istifadəsinə daha geniş rast gəlinir. Məsələn, Mag, Sam, Ben və s. adlara "-y" və ya "-ie" şəkilçisi əlavə oluaraq Molly, Nicky, Maggie kimi ifadə olunur.

b) nominal adlar. Burada heyvanların bəzi xarici xüsusiyyətlərini, xarakterini və ya onunla başqa bir əlaqəni vurğulayan nominal adlar, başqa söz və ifadələr işlədilir. Məsələn, *Blackberry, Sweety Pie, Spotsie* [5].

Dilçilikdə zoonimlər son dərəcə az tədqiq edilmiş və onların tərcümə mətnlərində transformasiya məsələsi praktiki olaraq işlənməmişdir. Tərcümə üçün problem ilk növbədə müəyyən motivasiyaya malik ləqəblərdir.

Elmi ədəbiyyatda zoonimlər az tədqiq olunduğu üçün və onların tərcümə mətnlərində ötürülməsi problemini həll etmək mümkün olmur. Tərcümə üçün problemlər ilk növbədə insanların müəyyən motivasiyaya malik olduğu ləqəblərdir.

Əgər ləqəb ümumi isimdən və ya səciyyələndirici söz və ya söz birləşməsindən yaranıbsa, bu orijinal söz və ifadələrin mənası, bir qayda olaraq, aktual olaraq qalır və buna görə də tərcümə üçün vacibdir. Bu mənanı çatdırmaq cəhdi çox vaxt xüsusi isimlərin fərdiləşdirmə funksiyası ilə ziddiyyət təşkil edir ki, bu da onun unikal zahiri formasının qorunmasını tələb edir.

Zoonimlərin tərcüməsi zamanı tərcüməçi ilk olaraq tərcümənin xarakterindən və vəziyyətindən asılı olduğunu bilməlidir. Bu zaman tərcümə olunan mətnlərin şifahi və yazılı şərhində, orijinala yaxın adın xarici formasını çatdıran onomastik uyğunluqlardan istifadə olunmalıdır. Ünsiyyətlər zamanı tərcüməçi oxucuya başa salır ki, heyvan zoonimin daşıyıcısıdır. Ləqəbin motivasiyasını dinləyiciyə, oxucuya izah etməyi zəruri hesab edən tərcüməçi tərcüməni aydınlaşdırmaq üçün mötərizə daxilində hərfi mənası ilə yanaşı, daşıdığı ümumi başa düşülən mədəni və ya emosional əlaqələri təsvir edə bilər.

İşin elmi nəticəsi: belə hesab edirik ki, zoonimlər istər bədii ədəbiyyatda, istər şifahi nitqimizdə daim işlənsə də yeni-yeni elmi araşdırmalara ehtiyac duyulur.

İşin elmi yeniliyi: ingilis dilində olan zoonimlərin ifadə etdiyi leksik mənalar araşdırılmaya cəlb olunmuşdur, müəyyən dərəcədə zoonimləri izah etməyə çalışmışıq.

İşin tətbiqi əhəmiyyəti: belə düşünürük ki, "İngilis dilində zoonimlərin leksik xüsusiyyətləri" mövzusunda tədqiqat aparan hər kəs üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Azerbaycan onomastikasi (kurs üzrə metodik göstəriş). − Bakı, − 1990, − 91 s.
2. Qurbanov, A.M. Azərbaycan dilinin onomalogiyası / A.M.Qurbanov. − Bakı: Maarif, − 1988, − 596 s.
3. Ghobadighadikolaei, F. A comparative connotative Analysis of 35 Zoonyms in English and Persian.SCI Science Arena Publications Specialty Journal of Humanities and Cultural Science ISSN: 2520-3274 www.sciarena.com 2018, Vol, 3 (2): 13-19
4. Hajiyeva, A. English lexicology / A.Hajiyeva. − Baku, − 2011, − p. 248.
5. https://cyberleninka.ru/article/n/linguocultural-analysis-of-zoonyms-in-english-and-uzbek

A.A.Guliyeva

Lexical Features of Zoonyms in English Language

Summary

Zoonyms consist of an important part of the vocabulary in English language. The naming of animals by various special names has existed since ancient times to nowadays, which is related to their special role in human life. They are invaluable assistants in human economic activity, close and true friends for circus and zoo workers. Moreover, since they cannot be translated, they are attributed to non-equivalent units. That is why it contains a national-cultural component revealed through the semantic analysis and comparison of words. Human does not deal with the world, but with his own ideas, cognitive patterns and models. Even so, the communication and interaction of language and culture becomes one of the main problems of modern linguistics.

Key words: *zoonym, phraseological units, metaphor, lexical feature, communication*

А.А.Кулиева

Лексические особенности зоонимов в английском языке

Резюме

Зоонимы составляют важную часть словарного запаса английского языка. Наименование животных различными специальными именами существует с древнейших времен и по наших дней, что связано с их особой ролью в жизни человека. Они – неоценимые помощники в хоз-

яйственной деятельности человека, близкие и верные друзья работников цирка и зоопарка. При этом, поскольку они не подлежат переводу, их относят к безэквивалентным единицам.Именно поэтому оно содержит национально-культурный компонент, выявляемый посредством семантического анализа и сравнения слов. Человек имеет дело не с миром, а со своими собственными идеями, когнитивными закономерностями и моделями. Несмотря на это, общение и взаимодействие языка и культуры становится одной из главных проблем современного языкознания.

Ключевые слова: *зооним, фразеологический единицы,метафора, лексическая особенность, коммуникация*

Rəyçi: dos. Z.N.Aslanova

Redaksiyaya daxil olub: 22.04.2024